*Dekabrın 16-da Gənc Tamaşaçılar Teatrında Azərbaycan Yazıçılar Birliyinin 75 illiyinə həsr olunmuş təntənəli tədbir keçirildi.*

*Əvvəlcə "Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyinin ədəbi salnaməsi" seriyasından Azərbaycan Yazıçılar Birliyinin sifarişi ilə çəkilmiş "Ədəbi salnamə" sənədli filmi nümayiş etdirildi.*

*Sənədli filmin bələdçisi, AMEA-nın müxbir üzvü, millət vəkili Rafael Hüseynovun tanış səsi yaddaşları təzələdi: "Bütün pillələrin ən yüksəyi sözdü. Tarixin zirvələrinə aparan bu pillələrin yaradıcıları xalqımızın görkəmli sənətkarları, qələm adamlarıdı. Onlar eyni pillələrdə rastlaşıb, qovuşublar".*

*Kadrlar boyu Azərbaycan Yazıçılar Birliyinin keçib gəldiyi tarixi yol vərəqləndi, bu qurumun təməlinə daş qoyanların adları ehtiramla çəkildi, 37-ci illərin qara günləri anıldı, görkəmli xalq yazıçılarımızın, xalq şairlərinin tanış simaları dərin hörmətlə göz önünə gətirildi, ədəbiyyatımızın, mədəniyyətimizin inkişafına xüsusi diqqətlə yanaşmış ulu öndər Heydər Əliyevin iştirakı ilə keçirilən Yazıçılar qurultaylarının materialları minnətdarlıq hissiylə təqdim edildi. Ölkəmizin başçısı İlham Əliyevin Yazıçılar Birliyinə gələrək, onun göstərişi ilə burada aparılan təmir işlərinin nəticəsilə tanış olması, Şamaxıda Nəsiminin heykəlinin açılışı mərasimində iştirakını əks etdirən kadrlar ədəbiyyatımıza dövlət dəstəyi haqqında deyilənlərin əyani sübutu kimi diqqət çəkdi.*

*Sonra Baş nazirin müavini, xalq yazıçısı Elçin çıxış etdi.*

# Baş nazirin müavini, xalq yazıçısı Elçinin nitqi

- Xanımlar və cənablar!
Hörmətli qonaqlar!
Əziz dostlar!

Bu gün biz Azərbaycan Yazıçılar Birliyinin 75 illik yubileyini bayram etmək üçün bu zala toplanmışıq. Bu münasibətlə mən sizin hamınızı təbrik edirəm. Qonaqlarımızı ürəkdən salamlayır və onlara "xoş gəlmisiniz" deyirəm.

Mən bu yubiley toplantısını ədəbiyyatımızla bağlı tarixi bir hadisə hesab etdiyim üçün, çıxışımı yazmış, onu, necə deyərlər, sənədləşdirmişəm.

Yazıçılar Birliyinin 75 illik yubileyi ədəbiyyat tariximizin həmişə yadda qalacaq, xatırlanacaq tarixi bir səhifəsidir. Bu səhifənin çevrilməsi ilə ədəbiyyatımızın və ədəbi mühitimizin son 75 illik mühüm, mühüm olduğu qədər mürəkkəb, mürəkkəb olduğu qədər də ziddiyyətli bir dövrü başa çatır.

Bu gün cəmiyyətdə hərdən belə bir fikir ilə rastlaşınq ki, yaradıcılıq ittifaqlarını və o cümlədən də ilk növbədə Yazıçılar Birliyini Stalinin ideoloji siyasəti yaradıb, buna görə də o, ləğv olunsun. Bu fikir məsələyə aşkar vulqar-sosioloji yanaşma tərzinin ifadəsi olsa da, onu eşitməmək, belə bir mövqeyi görməməzliyə vurmaq düzgün deyil və ona cavab vermək lazımdır.

Bəli, Yazıçılar Birliyi (o zaman İttifaqı) bilavasitə İosif Stalinin təşəbbüsü və qərarı ilə yaranmış, adı ictimai, əslində isə dövlət institutu idi və məqsəd də ondan ibarət olmuşdu ki, bu institut ədəbiyyat sahəsində Kommunist Partiyasının yürütdüyü siyasətin həyata keçirilməsində köməkçi olsun.

Sovet İttifaqında Yazıçılar İttifaqı mahiyyətcə nüfuzlu bir nazirlik idi və təsadüfi deyildi ki, bu İttifaqın rəhbərləri SSRİ Ali Sovetinə, müttəfiq sovet respublikalarının, o cümlədən Azərbaycan SSR-in Ali Sovetinə deputat təyin olunurdu, Kommunist Partiyası Mərkəzi Komitəsinin tərkibinə salınırdı, bir sözlə, ölkənin rəhbər dekorasiyasında təmsil edilirdi.

Bütün bunları inkar etmək olmaz və lazım da deyil, ancaq bütün bunlarla bərabər, Azərbaycan Yazıçılar İttifaqının nəinki Azərbaycan ədəbiyyatının tarixində, mübaliğəsiz deyirəm ki, Azərbaycan xalqının taleyində böyük müsbət rolu olub.

Hələ mən o sualı vermirəm ki, məgər Sovet İttifaqında yaranan, qurulan, fəaliyyətə başlayan hər şey ucdantutma pisdirmi, hamısını dağıtmaq lazımdırmı?

Yəqin bu sualı verməyin özü məqbul deyil, çünki söhbət tək Yazıçılar Birliyindən getmir, minlərlə tədris ocaqlarından, universitetlərdən, teatrlardan, muzeylərdən, kitabxanalardan və sairdən gedir. Ona görə də belə bir mövqeyin və düşüncə tərzinin neobolşevik mahiyyəti, güman edirəm ki, aydındır.

Bəli, Yazıçılar Birliyinin 75 illik tarixində qara səhifələr də mövcuddur və ilk növbədə, əlbəttə, müdhiş "1937" rəqəmi gözlərimizin qabağına gəlir.

Bəli, "Böyük terror" deyilən həmin dəhşət zamanı və o dəhşət içində Yazıçılar İttifaqında da, bu İttifaqın üzvü olan yazıçılar bir-birini ifşa edib. Ancaq gəlin görək, həmin vaxtlarda təkcə Azərbaycanda deyil, bütün Sovet İttifaqında, o nəhəng bolşevik imperiyasında hansı zavodda, fabrikdə, kolxozda, hansı tədris ocağında, elmi müəssisədə və sair və sair və sairdə fəhlə fəhləni, kolxozçu kolxozçunu, müəllim müəllimi, professor professoru, həkim həkimi, hətta tələbə tələbəni ifşa etməyib?

Yazıçılar Birliyinin də tarixindəki bu qara səhifəyə görə bu gün onu ittiham etmək, həmin ümumxalq tragediyasına, güman edirəm ki, bəsit münasibətin ifadəsidir. Bu tragediyanın daxili mündəricatı o qədər ağırdır ki, o, spekulyasiyalar və intriqalar üçün hədəf yox, həm müəyyənedici dərəcədə siyasi-ictimai, həm də taleyüklü mənəvi dərs olmalıdır. Qorxunun ələ aldığı xislətin nələrə qadir olması nə yazıçıya, nə fəhləyə, nə də alimə baxır, məsələ həmin qorxunu yaradan səbəbləri, o qorxu stimullarını bəşəriyyətin içindən çəkib çıxarmaqdadır ki, elə bunun özü də böyük ədəbiyyat predmetidir.





Sənətin, o cümlədən də ədəbiyyatın təbiəti elədir ki, onu heç vəchlə çərçivələrə salıb saxlamaq mümkün deyil və elə bilirəm ki, bəşəri ədəbiyyatın min illiklərlə tarixi bütün epoxalarda, bütün ictimai formasiyalarda, ayrı-ayrı tiraniyalarda bunu mükəmməl sübut edib. Tarix Sovet İttifaqının da istisna olmadığını göstərdi.

Bəli, Yazıçılar Birliyinin ədəbi orqanlarında "bədii ədəbiyyat" adı ilə az maklatura çap olunmayıb. Hətta bəzən fantosmoqrafik bir mənzərə yaranırdı: Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin, misal üçün, heyvandarlığın inkişafı ilə bağlı qərarı çıxırdı və ədəbi konyuktura dərhal bu qərarın ədəbiyyatda inikasını tələb edirdi. Siz Yazıçılar Birliyinin ədəbi orqanlarını vərəqləsəz bu cür yazılara rast gələcəksiniz.

Ancaq bütün bunlarla bərabər, yeni ədəbi janrlar məhz Azərbaycan Yazıçılar İttifaqının ədəbi orqanlarında yaranıb, Azərbaycan ədəbiyyatının son 75 ildəki ən yaxşı nümunələri məhz həmin ədəbi orqanlarda dərc edilib, məhz bu ədəbi orqanlar milli mənliyimizin və dilimizin keşiyində dayanıb. Ədəbi maklatura ilə bərabər, yalnız yazıçı fərdini yox, o fərdlə bərabər xalqımızı ifadə edən nə qədər romanlar, povestlər, dram əsərləri, poemalar, şeirlər meydana çıxıb.

Ədəbi maklatura bütün dövrlərin ədəbi maklatura-

**(Ardı 2-ci səh.)**

# Baş nazirin müavini, xalq yazıçısı Elçinin nitqi

(Əvvəli 1-ci səh.)

sı kimi yox olub, sistem tərəfindən rütbə almış ədəbi generallar unudulub, ancaq o dövrdə yaradılmış sənət nümunələri bu gün də, yəni Sovet İttifaqı dağılandan sonra da müstəqil ölkəmizdə yaşayır, gələcəkdə də yaşayacaq, siyasi konyukturaya yox, həqiqi istedada malik olmuş yazıçılarımız bu gün də sevilib-sayılır və gələcəkdə də belə olacaq.

Azərbaycan ədəbi tənqidi bütün vulqar-sosioloji təmayüllərinə baxmayaraq, Yazıçılar İttifaqının ədəbi orqanlarında təşəkkül tapıb və formalaşıb. Hərgah bu gün biz ədəbi tənqidin problemlərini qaldırmaq, onun məziyyətlərindən, eləcə də kəsirlərindən danışmaq imkanına malikiksə, ilk növbədə keçən əsrin 30-40-50-ci illərində dərc olunmuş ən yaxşı ədəbi-nəzəri məqalələrə görə həmin ədəbi orqanlara borcluyuq.

Bir anlıq təsəvvür edək ki, xalqımızın keşməkeşli tarixinin son 75 ilində Yazıçılar Birliyi də, onun ədəbi orqanları olmayıb, o zaman bizim mənəvi simamız nə qədər kasıblaşmış olar.

Şəxsən mənim buna heç bir şəkk-şübhəm yoxdur.

Mən Yazıçılar Birliyinin xalqımızın taleyində böyük müsbət rol oynadığını dedim.

Nələri nəzərdə tuturam?

Bu suala çox qısaca cavab vermək istəyirəm.

Azərbaycan xalqının özünüifadəsində və bu özünüifadənin tariximizin sovet dönəmi kimi mürəkkəb və ziddiyyətli bir dövründə özünütəsdiqə gətirib çıxarmasında Yazıçılar İttifaqının ciddi, bəzi məqamlarda isə həlledici rolu şübhəsizdir.

Baxın, Yazıçılar İttifaqının ədəbi orqanlarında, yəni Yazıçılar İttifaqının rəhbərliyi altında hətta ən qorxunc terror illərində belə, vətəni, konkret olaraq Azərbaycanı, doğma torpağı, Azərbaycan dilini vəsf eləyən nə qədər əsərlər çap olunub. Bu əsərlərin hamısı, aydın məsələdir, böyük sənət nümunəsi deyil, ancaq onlar bir küll halında mahiyyət etibarilə sistemin yox etməyə çalışdığı milli ruhun, milli vətənpərvərliyin yaşamasında, güclənməsində çox mühüm rol oynayıblar.

Türkmənçay müqaviləsi və xalqımızın iki yerə parçalanması bu ədəbi orqanların mündəricatında daimi yer tutub. Yalnız elə Təbriz haqqında yazılmış və bu ədəbi orqanlarda dərc edilmiş şeirləri bir yerə toplasaq, həmin onlarla cildin aurası kifayətdir ki, vətənin bütövlüyü, xalqın bütövlüyü ilə bağlı arzu, istək, mənəvi vətəndaş ehtiyacı həmişə səninlə bir yerdə olsun və nəsillərdən-nəsillərə adlasın.

Bəli, Yazıçılar İttifaqını sovet sistemi yaradıb, ancaq bu İttifaq heç vaxt sistem üçün doğma olmayıb, sistemi daima səksəkədə saxlayıb. Yazıçılar İttifaqında da sistemin şəninə, Leninin və Stalinin, Qızıl meydanın və Kreml ulduzunun, partiya biletinin və pioner qalstukunun şərəfinə diferambalar söylənib, ancaq əslində, mahiyyət etibarilə, bir küll halında Yazıçılar İttifaqı yalnız Azərbaycanda yox, bütün sovet respublikalarında sistemə qarşı təhtəlşüur bir müxalifətdə olub və bu da təbiidir, çünki söhbət ədəbiyyatdan gedir, heç bir siyasi-inzibati qəliblərə sığmayan bu bəşəri mənəvi dəyərin təbiətini dəişmək mümkün deyil. Ona zərbə vurmaq olar, bəzən onu gülünc bir vəziyyətə də salmaq olar, hətta onu hansı keçici etaplarda isə sındırmaq da olar, ancaq onun təbiətini dəyişmək mümkün deyil.

Azərbaycan dilinin yaşamasında, ədəbi dilinin inkişafında, bədii dilimizin zənginləşməsində Yazıçılar İttifaqının müstəsna rolu olmuşdur. Həmin 30-40-50-ci illərdə, o vaxt ki, Bakının demək olar ki, heç bir müəssisəsində, təşkilatında, idarəsində Azərbaycan dilində rəsmi tədbirlər, toplantılar, iclaslar keçirilmirdi, bu dil, yəni Azərbaycan dili bütün vüsəti ilə məhz Yazıçılar İttifaqından, Yazıçılar İttifaqının keçirdiyi tədbirlərdən, qurduğu ədəbi məclislərdən bütün respublikaya yayılırdı.

Həmin illərdə Yazıçılar İttifaqı yeganə mərkəzi təşkilat idi ki, orada kargüzarlıq rus dilində yox, Azərbaycan dilində aparılırdı. Hətta dilin ruslaşdırılması siyasətini həyata keçirən, bəlkə də həyata keçirməyə məcbur olan partiya və sovet funksionerləri də tutduqları ən yüksək vəzifələrdən asılı olmayaraq Yazıçılar İttifaqında və ümumiyyətlə, yazıçı məclislərində Azərbaycan dilində danışmalı olurdular.




O zaman ki, sistem Azərbaycan dilini Sovet İttifaqının əyalət dillərindən birinə çevirməyə çalışırdı və Bakıda Azərbaycan intellegensiyasının, ziyalıların, xüsusən yaradıcı və elmi ziyalıların övladları rus dilində təhsil alırdı, Azərbaycan məktəblərinə gedən məhz Yazıçılar İttifaqının üzvləri olan Azərbaycan yazıçılarının övladları idi və bu, bir sıra başqa sovet türk respublikalarındakı kimi təhsilimizin, orta məktəblərin kütləvi ruslaşdırılmasına qarşı mücadilənin xalqın gözü qabağında əyani və effektli nümunəsi idi.



Postsovet məkanının bir sıra respublikalarında Yazıçılar İttifaqları dağıldı. Bir neçə il bundan əvvəl mən Moskvada olarkən SSRİ Yazıçılar İttifaqına getdim və oranın yetim görkəmi mənə çox təsir etdi: jurnal redaksiyalarının yerində restoranlar, barlar, həyət tamam baxımsız, bərbad bir vəziyyətdə, İttifaqın qalan hissəsinin qapısında isə yekə və paslı bir qıfıl, pəncərələrin şüşəsi qırıq... Məlum oldu ki, o eybəcər qıfıl o rəngi getmiş, suvağı qopmuş qapıya SSRİ Yazıçılar İttifaqının əmlakı - köhnə stollar, stullar, dolablar - uğrunda müxtəlif yeni ədəbi qurumların məhkəmə çəkişmələrinə görə asılıb. Mən fikirləşdim ki, hərgah bu miskin və acınacaqlı vəziyyət sovet sisteminə qarşı mübarizənin nəticəsidirsə, onda belə bir mübarizə heç kimə və heç nəyə lazım deyil.

Azərbaycanda Yazıçılar Birliyi qorunub saxlandı və bu işdə mən ümummilli liderimiz, unudulmaz Heydər Əliyevin xidmətlərini xüsusi qeyd edirəm. Bu işin içində olan bir adam kimi, mən bilavasitə bunun şahidi olmuşam, ki, müstəqilliyimizin çətin vaxtlarında, iqtisadi böhran keçirdiyimiz bir zamanda Heydər Əliyev hansı bir iradə və qətiyyətlə Yazıçılar Birliyinin və onun ədəbi orqanlarının xərclərini dövlət büdcəsinə daxil etdi.

Bu gün Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevin sərəncamları sayəsində bizim yaşa dolmuş onlarla yazıçımız Prezident təqaüdü alır, onlarla yaşlı və gənc yazıçılarımız ildən-ilə Prezident mükafatı alır, Yazıçılar Birliyinin tarixi binası gözəl təmir olunub, Birliyin bütün təchizatı dövlətin hesabınadır. Bu gün qeyd etdiyimiz bu 75 illik yubileyin özü də respublika Prezidentinin sərəncamı ilə keçirilir.

Bütün bunlar dünyanın heç bir ölkəsində analoqu olmayan unikal hadisələrdir.

Əziz dostlar!

Bir cəhəti də qeyd etməyə bilmərəm. Yazıçılar Birliyinin qorunub saxlanması yalnız bir yazıçı kimi deyil, yalnız bir Azərbaycan vətəndaşı kimi yox, bir insan kimi də şəxsən mənim üçün çox qiymətlidir. Mən həyatımın 10 ildən artıq bir müddətini Yazıçılar Birliyində çalışmışam, orada siyasi-ictimai və ədəbi konyukturaya yox, bir gənclik enerjisi və həvəsi ilə yazıçılara və ədəbiyyata xidmət etmişəm. Buna görə də Yazıçılar Birliyinin 75 illiyini mən həm də öz şəxsi bayramım kimi qəbul edirəm.

Elə buna görə də mən istəyirəm ki, Yazıçılar Birliyi və onun ədəbi orqanları ədəbiyyatımızın inkişafında daha aktiv, daha effektli rol oynasın, mən istəyirəm ki, Yazıçılar Birliyi daha artıq bir ehtirasla ədəbiyyat mücadiləsi aparsın, ədəbiyyatımızın aktual nəzəri-estetik problemlərini qaldırsın, yaranan ədəbi əsərlərin bədii-estetik baxımdan prinsipial təsnifatında daha fəal iştirak etsin, Qarabağ mövzusunun və bu mövzu ilə bağlı faciələrin *böyük bədii sözün* materialına çevrilməsi naminə daha artıq bir enerji ilə fəaliyyət göstərsin.

Yazıçılar Birliyinin dağılmaq təhlükəsi, çətin günlər arxada qalıb və bu gün yüksək səviyyəli ədəbiyyat mübarizəsi üçün bəlkə də heç vaxt olmadığı qədər münbit ədəbi zəmin, əlverişli ədəbi şərait var. Eyni zamanda, bu gün belə bir ədəbiyyat mübarizəsinə böyük də bədii-estetik ehtiyac var və mən inanıram ki, belə də olacaq, Yazıçılar Birliyi daima yaşayacaq.

Mən bizim "Ədəbiyyat qəzeti"ni də 75 illiyi münasibətilə ayrıca olaraq ürəkdən təbrik edir və redaksiyaya ən səmimi arzularımı bildirirəm.

*Məruzə üçün söz Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anara verildi.*